**UOT: 94(479.24).**

# XOCALI SOYQIRIMINA APARAN YOL - QARADAĞLI FACİƏSİ

***Namazova Elminaz Məhərrəm qızı***
***Gəncə Dövlət Universiteti***
***elminaznamazova@mail.ru***

**Xülasə:** *1989-cu ildən etibarən Azərbaycan Respublikasının Xocavənd rayonunun Qaradağlı kəndinin sakinləri erməni işğalçılarına qarşı dörd il qəhramanlıqla mübarizə aparmışlar. Bu dövrdə Qaradağlının ətraf erməni kəndləri və rayon mərkəzi ilə əlaqəsi kəsilmiş, işləyənlər işdən qovulmuşdular.*

*1992-ci il fevralın 14-də erməni quldurları xarici muzdluların, xüsusilə, Xankəndində yerləşən keçmiş SSRİ silahlı qüvvələrinin 366-cı motoatıcı alayının hərbi qüvvəsinin və texnikasının köməyi ilə əlaqəsi hər tərəfdən kəsilmiş köməksiz qalan Qaradağlı kəndinə hücuma keçdilər.*

*Kəndə son hücum 1992-ci il fevralın 17-də səhər saat 5:00 radələrində başladı. Kənd uğrunda döyüş on bir saat davam etmiş və Qaradağlı kəndi erməni silahlı dəstələri tərəfindən işğal edilərək yandırılmışdı. Bu hücum zamanı erməni işğalçıları dinc əhaliyə qarşı soyqırımı həyata keçirmişdi. Kənddə olan 118 nəfər əsir götürülmüşdür. Əsir götürülənlərdən əksəriyyəti gənclər olmaqla 33 nəfəri kəndin yaxınlığında vəhşicəsinə güllələnmiş, öldürülənləri və yaralı halda olanları bir yerdə təsərrüfat quyusuna tökərək üzərlərini torpaqla örtmüşlər. Əsirlikdən xilas edilənlərin böyük əksəriyyəti əsirlikdə verilən ağır işgəncələrdən, onlara vurulmuş naməlum tərkibli iynələrin təsirindən qısa zamanda vəfat edib.*

*Qaradağlıda törədilən qətliam, kənd sakinlərinə verilən işgəncələr 200 ilə yaxın müddətdə erməni millətçilərinin azərbaycanlılara qarşı həyata keçirdiyi etnik təmizləmə və soyqırımı siyasətinin davamı və Azərbaycan türklərinə bəslədikləri nifrətin nəticəsi idi. Bu nifrət xalqınıza qarşı növbəti daha dəhşətli Xocalı soyqırımının törədilməsinə yol açdı. Xocalı soyqırımı ermənilərin necə vəhşi bir xalq olduğunu bir daha bütün dünyaya sübut etmiş oldu.*

*1992-ci ilin dəhşətli fevral gecəsində Xocalıda törədilmiş qətliamlar elə bir şəkildə həyata keçirilmişdir ki, belə əməlləri insan ağlı nə dərk edə bilər, nə də insan vicdanı onu daşıya bilər. İnsan, Xocalı soyqırımının insan əməli olmasını dərk etməkdə belə acizdir. Bunu yalnız İblis əməli hesab etmək olar.*

**Açar sözlər:** Azərbaycan, Qaradağlı kəndi, Xocalı, soyqırım, terror, faciə, erməni cəlladları

**Ключевые слова:** Азербайджан, село Гарадаглы, Ходжалы, геноцид, террор, трагедия, армянские палачи.

**Keywords:** Azerbaijan, Garadagli village, Khojaly, genocide, terror, tragedy, Armenian executioners

Tarix boyu türklərə qarşı soyqırımı həyata keçirməkdən çəkinməyən ermənilər XX əsrin sonlarında bütün bəşəriyyətə və insanlığa ləkə olan növbəti cinayəti-Qaradağlı soyqırımını həyata keçirdilər.

Qaradağlı faciəsi ermənilərin xəstə təfəkkürdən doğan niyyətlərinə çatmaq üçün Azərbaycan xalqına qarşı həyata keçirdikləri soyqırımı siyasətinin ən qanlı səhifələrindən biridir.[ 1]

Qaradağlı faciəsinin qurbanı İslam Dadaşov bildirirdi ki,1988-ci ildən sonra Qarabağ və ətraf rayonlarda yaşayan sakinlərin evində olan silahlar zorla yığılır, kəndlilər məqsədli

şəkildə tərkisilah edilirdilər. Düşmənə qarşı hər kəs əlindən gələni edirdi.Qaradağlının müdafiəsi zamanı kənd sakinləri düşmənə qarşı bütün vasitələrdən istifadə edirdilər Ağır texnikalarlarla silahlanmış ermənilərə qarşı bir neçə avtomat və ov tüfəngimiz var idi. Həmçinin düşmənə qarşı nisbətən iri daşlar atan yerüstü sapanddan da istifadə edirdik. O zaman kimin evində pulu, qızılı var idisə avtomat və güllə alıb, kəndin özünümüdafiə dəstəsinə qoşulub, ermənilərə qarşı vuruşurdu. [2].

1989-cu ildən etibarən kənd üzərinə ermənilərin hücumu başlamışdı. Həmin ilin dekabrında ermənilər kənd yaxınlığındakı fermaya hücum etmiş və oranı yandırmışdılar. 1990-cı il yanvarın 15-də 20 nəfərə qədər silahlı erməni Qaradağlıya yaxınlaşıb kəndin kənarındakı evləri atəşə tutmuşlar. Özünü hadisə yerinə çatdıran müdafiəçilər ilk açıq silajlı döyüşə girərək  düşməni geri oturtmuşdular. Erməni quldurları 10 aprel 1990-cı ildə yenidən kənddə hücum etmişdilər. Atışma zamanı kənd sakini İlqar Əliyev ağır yaralanmışdı. 1990-cı il noyabr 24-də saat 17-00 radələrində Qaradağlıdan Ağdama gəlin aparan maşın karvanı, kəndin 5 kilometrliyində rus hərbi paltarı geymiş ermənilərin təcavüzünə məruz qalmış, həmin hadisədə üç nəfər qaradağlılı həlak olmuşdu. Ermənilər hadisə yerini mühasirəyə alaraq meyidləri aparmağa gələnləri irəli buraxmır , Ayaz Mütllibovun gəlməsini tələb edirdilər. İki saatdan sonra , çətinliklə də olsa, camaat meyidləri ermənilərin əlindən ala bilmişdi. Bu hadisədən sonra Qaradağlı müdafiəçiləri kəndin ətrafında güclü müdafiə postları, istehkamlar və səngərlər qurmaq qərarına gəldilər. 1990-cı ilin noyabr ayından başlayaraq bütün postlarda fasiləsiz olaraq silahlı müdafiəçilər keşikdə dayanırdılar. 1991-ci ilin əvvəllərində baş vermiş faciə vəziyyəti daha da gərginləşdirdi. Yanvarın 10-da kəndin sakinlərindən olan Sultan Bayramov ermənilərə qarşı birgə mübarizə tədbirləri hazırlamaq üçün qonşu Əmrallar kəndinə getmişdi. Sultan Qaradağlıya qayıdanda kəndə çatmamış birinci postdan 4 kilometr məsafədə onun mindiyi "UAZ-469" markalı 53-55 AQT dövlət nişanlı minik maşını ermənilər tərəfindən qəfil atəşə tutulur. Maşının sürücüsü  Kərəm Tağıyev maşını sürüb kəndə çatdırsa da, Sultan Bayramovun həyatını xilas etmək mümkün olmur. O, iki saatdan sonra aldığı yaralardan dünyasını dəyişir. Sultanın dəfn günü Laçın-Şuşa yolunda jurnalist Salatın Əsgərovanın ermənilər tərəfindən öldürülməsi xəbəri kəndə yayıldı. (3)

Bu faciəli hadisədən sonra qaradağlılar əməliyyat planı hazırladılar. Əməliyyata Ədalət Məmmədov rəhbərlik edirdi. Kəndin müdafiəçiləri tərəfindən Xankəndindən Xocavəndə tələsən, içində 6 erməni quldurun olduğu "UAZ" markalı maşın ələ keçirilərək məhv edildi. Bundan sonra Xankəndi- Xocavənd yolunda ermənilərin hərəkəti dayandı.

1991-ci il martın 9-da erməni quldurları kəndin yaxınlığındakı mal fermasına qəfildən silahlı basqın edib iki nəfəri qətlə yetirdi. Həmin il iyun ayının 28-də gecə saat bir radələrində Qaradağlı kəndi ermənilər tərəfindən toplardan, pulemyotlardan və avtomatlardan şiddətli atəşə tutuldu. Kəndin bir neçə evini alov bürüdü, bir neçəsi isə mərmi zərbəsindən dağıldı. Həmin gecə ən böyük faciə kəndin 5 kilometrliyində Vərəndəli sahəsində yerləşən fermada baş vermişdi. Quldurlar kəndi atəşə tutmaqla yanaşı eyni zamanda fermadakı evlərə soxularaq altı nəfər günahsız ferma işçisini də güllələmiş və izi itirmək üçün onları yanan evlərdən birinin içinə atmışdılar. Bundan sonra onlar kənara çəkilərək ferma tam yanana qədər oranı atəş altında saxlamışlar. Bəyverdi Novruzov başda olmaqla faciə yerinə gələn kənd camaatı yanan otaqların birində üç nəfərin gülədən dəlik-dəlik olmuş, odun-alovun içində  yanmış meyidlərini çıxara bilmişlər.Başqa bir otağın odu söndürüldükdən sonra isə tamamilə yanmış digər üç nəfərin cəsədləri aşkar edilmişdi.

Qaradağlı kənd sakinləri Çingiz Məmmədov, Kərəm Ağalarov və Şəfqət Məmmədova Qaradağlının ağır günləri haqqında aşağıdakı məlumatı vermişlər:1991-ci il sentyabr ayının 8-də A.Mütəllibovun prezident seçilməsi günü idi. Qaradağlılar səhər tezdən seçki məntəqəsinə

gəlib səs verirdilər. Səsvermədən sonra bazarlıq etmək üçün kənd sakinləri seçki məntəqəsinin qarşısında dayanmış avtobusa minərək Ağdama getmişlər. Geri qayıdarkən avtobus Xocavənddən 3 kilometr aralıda hər tərəfdən avtomat atəşinə tutulmuş, avtobusda olan 40 nəfərdən 2 oğlan, 6 qadın qətlə yetirilmiş, 23 nəfər yaralanmışdır.[3]

1992-ci il yanvarın 8-də Qaradağlı kəndinin yaxınlığında Böyük Vətən Müharibəsi iştirakçısı Əliyev Qasım Hüseyn oğlu vəhşicəsinə qətlə yetirildi. Həmin gün Milli Ordumuzun döyüşçüsü, 23 yaşlı Məzahir Gülverdiyev ağır döyüşdə şəhid oldu. Kəndin qonşuluğunda olan Xocavənd kəndi 1991-ci il dekabrın 19-da işğal edildi. Kəndə yaxın olan Malıbəyli kəndi isə 1992-ci il fevralın 12-də yandırıldı. Hamıya aydın oldu ki, növbəti hədəf Qaradağlıdır. Kənddə vəziyyət getdikcə çətinləşir, faciənin törədiləcəyi gün hər dəqiqə yaxınlaşırdı. Ağdamda olan kənd sakinləri özlərini oda-közə vursalar da respublika rəhbərliyi onlara kömək etmir, insanları yalançı vədlərlə aldadırdılar. Düşmən isə çirkin niyyətlərini həyata keçirmək üçün yeni planlar hazırlayır, qurbanlar axtarırdı.[4]

1992-ci il fevralın 14-də kəndin bütün yolları kəsilmişdi. Həmin vaxt 104 nəfər kənd sakini və 14 əsgərimiz demək olar ki, son anlarını yaşayırdılar. Ermənilər fevral ayının 14-də hücuma keçdilər. Kənd güclü atəşə tutuldu. Kənxurd, Qağarza, Ağkənd, Aşan, Müşkabad, Ninqi-Xakəndi və digər erməni kəndləri istiqamətində xarici muzdluların, Xankəndində yerləşən keçmiş Sovet ordusunun 366-cı alayın texnikasından və canlı qüvvəsindən istifadə edən ermənilər köməksiz qalan Qaradağlı kəndinə qəti hücuma keçdilər. Az miqdarda sadə silahlarla təmin olunmuş qaradağlılar on dörd nəfər Milli Ordunun əsgəri ilə birlikdə amansız və qeyri bərabər döyüşə girdilər. Qarşıda iki yol dururdu: Şərəfli ölüm və ya təslim olma. Onlar birinciyə üstünlük verdilər. Bu yolu seçən qaradağlılar son patronlarına qədər dörd gün döyüşdülər. Döyüş vaxtı onlarla erməni yaraqlısı məhv edildi. Silah sursatı tükənən soydaşlarımızı sonda ermənilər əsir götürdü.[4]

Kəndin Bəylik bağı adlanan ərazisində iyrimi üç sakin erməni cəlladları tərəfindən güllələndi, əksəriyyəti yaralı halda diri-diri silos quyusunda basdırıldı. Əsirlərin bir hissəsi Qaradağlı- Xankəndi yolu üzərində yerləşən erməni kəndlərində maşınlardan düşürülərək güllələndi. İki nəfər Zəki bulağında, iki nəfər Cəmiyyət kəndində öldürüldü. Girovluqda olan səkkiz kənd sakinini ermənilər əzab və işgəncələr verərək amansızlıqla qətlə yetirdilər. Dörd nəfər müxtəlif vaxtlarda şəhid oldu. Beş nəfərin taleyi bu günə qədər məlum deyil.[2]

Belıliklə, 1992-ci il fevralın 17-də Qradağlı kəndi erməni silahlıları tərəfindən işğal olunaraq yandırıldı. Qaradağlıya hücumda Arabo və Aramo birləşmələri, Monte Melkonyanın dəstəsi iştirak etmişdir. Həmçinin kəndə hücum zamanı 366-cı motoatıcı alayın da qüvvələrindən istifadə edilmişdir. 366-cı motoatıcı alayın komando heyəti, əhalinin müqaviməti ilə rastlaşdıqlarına görə alayın sərbəst çıxarılmasını təmin edə bilmədiyini qeyd edirdi. Bu məqsədlə Gəncədə yerləşən desant diviziyasının qüvvələri cəlb edilməli oldu. Ancaq bu qüvvələr gələnədək alayın 103 nəfəri, əsasən ermənilərdən ibarət olan və qırğında iştirak etmiş hərbiçilər əmrə tabe olmaqdan boyun qaçıraraq Qarabağda qaldılar. Alayın komandanlığının cinayət sövdələşməsi və alayın çıxarılmasına məsul olan digər şəxslərin məsuliyyətsizliyi nəticəsində hərbi texnikanın bir hissəsi, o cümlədən zirehli texnika ermənilərə təhvil verildi. Bu qüvvələr Qaradağlı və Xocalı soyqırımlarında iştirak etdilər. Qaradağıl soyqırımının şahidləri də soyqırım aktında 366-cı motoatıcı alayın iştirakını təsdiqləyirlər.[3]

İşğal zamanı kənddə 118 nəfər olub. Onların hamısı əsir götürülüb. Əsir götürülmüş 118 nəfərdən 66 nəfəri amansızlıqla, ağır işgəncələrlə qətlə yetirilib, 52 nəfər çox böyük çətinliklə əsirlikdən azad edilib.

Əsrlikdə saxlanılanlara qarşı vəhşi, vandalizm hərəkətləri ilə davranılması, insanların başlarının kəsilməsi, diri-diri basdırılması, dişlərinin çəkilməsi, ac-susuz saxlanmaları, döyülərək öldürülmələri insanlığa qarşı törədilmiş cinayət hadisəsi idi. Erməni cəlladları öldürülənləri və yaralıları bir yerdə təsərrüfat quyusuna töküb, üzərini torpaqlayıblar. Əsir götürülənlərdən 10-u qadın, 2-si məktəbli olub.

Əsirlikdən xilas edilənlərin böyük əksəriyyəti əsirlikdə verilən ağır işgəncələrdən, onlara vurulmuş naməlum tərkibli iynələrin təsirindən qısa zamanda vəfat edib.

Qaradağlıya Ermənistan silahlı qüvvələrinin həmlələri zamanı qətlə yetirililənlərin 10-u qadın, 8-i məktəb yaşlı uşaq olub.

İşğal nəticəsində Qaradağlı kəndində 200 yaşayış evi əşyaları ilə birlikdə, 1mədəniyyət evi, 320 yerlik orta məktəb binası, 25 çarpayılıq xəstəxana binası və çoxlu sayda digər obyektlər dağıdılıb.

Kəndin 800 nəfərə yaxın sakini məcburi köçkün olub. İki ailədən hər birindən 4 nəfər həlak olub. 42 ailə başçısını itirib, 140-a yaxın uşaq yetim qalıb. Bu müharibədə Qaradağlı kənd sakinlərinin hər 10 nəfərindən biri ümumilikdə 78 nəfər şəhid olub.

Qaradağlı soyqırımı ermənilərin törətdiyi nə birinci, təssüf ki, nə də sonuncu soyqırım aktı deyil...

Ermənistan silahlı qüvvələri Qaradağlıda soyqırım törətməklə bərabər, azərbaycanlılara məxsus tarixi, dini, mədəni abidələri və qəbristanlığı da dağıtmışlar.[5,səh. 5-6]

Erməni quldurlarının törətmiş olduğu Qaradağlı faciəsi, Xocalı soyqırımı və xalqımızın başına gətirdikləri digər qanlı faciələrin qisası xalqımıza Qarabağ Zəfərini bəxş edən bizi qalib xalqa çevirən başda Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyev olmaqla, döyüş meydanında əsl qəhrəmanlıq göstərən qüdrətli Azərbaycan əsgəri tərəfindən 44 günlük müharibədə qətiyyətlə alındı.

***Ədəbiyyat***


1. http://www.xocavend-ih.gov.az/az/page/59.html

2.https://report.az/qarabag/qardagli-qaradagli-faciesinin-sahidleri-yaralilari-quyuya-tokub-ustunu -bağladilar-6-neferi-diri-diri-yandırdılar/

3.https://az.wikipedia.org/wiki/Qarada%C4%9Fl%C4%B1_q%C9%99tliam%C4%B1ə beynəlxalq axtarış elan edilib.

4. https://www.adalet.az/mobil/164459

5.Qənirə Paşayeva, Şaiq Aslanov ”Qaradağlı soyqırımı şahidlərin dili ilə”. “Elm və təhsil” Bakı-2013.


## ДОРОГА, ВЕДУЩАЯ К ХОДЖАЛИНСКОМУ ГЕНОЦИДУ – ТРАГЕДИЯ ГАРАДАГЛЫ

***Намазова Эльминаз Магеррам кызы***

***Резюме***

Исторически армянами был совершен бесчисленный геноцид против нашего народа. Одной из страшных трагедий, с которыми столкнулся азербайджанский народ в XX веке, являются кровавые террористические акты и геноцид, совершенные армянскими вооруженными формированиями против мирного населения в селе Гарадаглы Ходжавендского района Азербайджанской Республики 17 февраля 1992 года. Гарадаглинская трагедия является одной из самых страшных трагедий, произошедших в период армяно-азербайджанского нагорно-грабахского конфликта.

В статье «Дорога, ведущая к Ходжалинскому геноциду – Гарадаглинской трагедии» рассматривается дорога, ведущая к Ходжалинскому геноциду – Гарадаглинской трагедии, которая является одной из самых страшных и кровавых страниц в истории нашего народа.

**THE ROAD LEADING TO THE KHOJALY GENOCIDE - THE TRAGEDY OF GARADAĞLI**

***Namazova Elminaz Maharram***

***Summary***

Historically, countless genocides were committed by Armenians against our people. One of the terrible tragedies faced by the Azerbaijani people in the 20th century is the bloody terrorist acts and genocide committed by Armenian armed groups against civilians in Garadagli village of Khojavand district of the Republic of Azerbaijan on February 17, 1992. The Garadaghli tragedy is one of the most terrible tragedies that happened during the Armenian-Azerbaijani Nagorno-Grabagh conflict.

In the article "The road leading to the Khojaly genocide - the Garadagli tragedy", one of the most terrible and bloody pages in the history of our nation and the road leading to the Khojaly genocide - the Garadagli tragedy was investigated.

***Rəyçi:dos. A.Cavadov***
***Azərbaycan tarixi kafedrasının 7 iyul 2022-ci il tarxli iclasının 16 saylı protokolu***
***Daxil olma tarixi 25 oktyabr 2022-ci il***

**UOT 94 (479.25)**

**CƏNUBİ QAFQAZDA MÜNAQİŞƏLƏRİN TARİXİ KÖKLƏRİ**

***Qasımova Türkan İlqar qızı***
***Bakı Dövlət Universiteti***
***turkan.ilqar1990@mail.ru***

**Xülasə:** *XX əsrin sonlarında Sovet İttifaqında tənəzzülün ilkelementləri aydın şəkildə müşahidə olunurdu. Sosial-iqtisadi tənəzzül öz növbəsində ittifaq respublikalarda təlatümlərə səbəb olurdu. Bu cür gərginliklər həm də millətlərarası münasibətləri kəskinləşdirirdi. Cənubi Qafqazda vəziyyət daha gərgin idi. Burada həm ittifaqın qurulmasına qədər mövcud olmuş münaqişə ocaqları, həm də ittifaqın qurulmasından sonra meydana çıxmış bir sıra problemlər var idi. Məhz bunun nəticəsi idi ki, ərazicə elə də böyük olmayan Cənubi Qafqazda üç aktiv münaqişə zonası meydana çıxdı: Ermənistanın Azərbaycan ərazilərini işğal etməsi nəticəsində ErmənistanAzərbaycan münaqişəsi, Gürcüstanda gürcü-abxaz və gürcü-osetin münaqişələri. Sadalanan üç münaqişə zonası SSRİ-nin qurulmasına*

*qədərki dövrdə də qaynar nöqtələr olmuşdu. Sözügedən XX əsrin sonlarında olduğu kimi hazırdada öz aktuallığını qoruyur və Qafqazı dünyanın ən qaynar münaqişə ocağı məkanına çevirib.*

**Açar sözlər:** Qafqaz, Azərbaycan, Ermənistan, Gürcüstan, atəşkəs, siyasət, Əsrin müqaviləsi, münaqişə, osetinlər, abxazlar

**Ключевые слова:** Кавказ, Азербайджан, Армения, Грузия, прекращение огня, политика, договор века, конфликт, осетины, абхазы.